*Nizamişünaslıq 14, №1, 2026, səh. 65-72*

https://doi.org/10.59849/3006-2403.2026.1.65

***Leyla KƏRİMOVA***
***Filologiya elmləri üzrə fəlsəfə doktoru***
***Azərbaycan Milli Elmlər Akademiyası***
***Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu***
***ORCİD ID 0009-0009-2914-786X***
***E-mail: cool.kerimova@bk.ru***

# NİZAMİ GƏNCƏVİ ƏDƏBİ MƏKTƏBİ VƏ ŞƏRQ ƏDƏBİYYATINDA “XƏMSƏ” ƏNƏNƏSİ

*Açar sözlər:* Nizami Gəncəvi, poema, Xəmsə, şərq, ədəbi məktəb

***Giriş***

Nizami Gəncəvi dünya ədəbiyyatında özünməxsus mövqeyi olan nəhəng ədəbi simadır. Təkcə öz dövrünün deyil, bütün zamanların dahi şairi olaraq bilinən Nizami Gəncəvi dəyərli və zəngin ədəbi irsə sahibdir. XII əsr şairləri içərisində seçilən Nizami Gəncəvi o zamankı şairlərdən fərqli olaraq, yeni mövzularda əsərlər qələmə almış, dövrün ədəbi mühitinə yeni istiqamət gətirmişdir. XII-XIII əsr şairlərimiz daha çox qəzəl, qəsidə, rübai, qitə və s. lirik janrlarda şeirlər yazır, öz dövründə baş verən hadisələrə şeirlərində münasibət bildirirdilər. Xaqani Şirvani kimi görkəmli ədib bir neçə poema yazmış, əsərlərində bir sıra mühüm məsələlərə münasibət bildirməyi unutmamışdır. Bu baxımdan Nizami Gəncəvi yaradıcılığı XII əsr ədəbi mühitinə yeni nəfəs gətirmiş oldu. Bütün dünyada “Xəmsə” müəllifi kimi tanınan ədib həm də “Şeyx Nizami” adı ilə anılmaqdadır. Nizami Gəncəvinin yaradıcılığı dünya ədəbiyyatı üçün dəyərli mənbədir və təsadüfi deyil ki, onun bədii külliyyatı bir sıra dünya ədiblərinin yaradıcılığına təsirsiz ötüşməmişdir.

***Əsas hissə***

Nizami Gəncəvi öz dəyərli əsərləri ilə təkcə Azərbaycanda deyil, bütün dünyada tanınan görkəmli şəxsiyyətdir. Nizami Gəncəvi yazmış olduğu əsərlər və müraciət etdiyi mövzularla ədəbiyyata yeniliklər gətirmiş oldu. Öz dövrünün həyati reallıqlarını nəzmə çəkən Nizami Gəncəvi həm də müxtəlif parlaq ədəbi qəhrəmanlar yaratmış oldu. Bu qəhrəmanların bəzisi tarixin keçmişindən gələn, bəziləri əfsanələrdən yaranan, bəziləri şairin görmək istədiyi, fikirlərini ifadə etdiyi yeni və parlaq obrazlardır.

Nizami Gəncəvi yaradıcılığı təkcə yeni qəhrəmanlar və yeni mövzularla yekunlaşmır. Şairin ədəbiyyatdakı ən mühüm xidmətlərindən biri bütün dünyada məşhur olan “Xəmsə” yaratmasıdır, hansı ki, bu möhtəşəm beşlik yaxın və orta şərq ədibləri üçün dəyərli məxəz və mayak rolunu oynadı, şairin ədəbi məktəb yaratmasına səbəb oldu. Belə ki, “Sirlər xəzinəsi”, “Xosrov və Şirin”, “Leyli və Məcnun”, “Yeddi gözəl”, “İsgəndərnamə” poemaları bir çox dünya şairlərinin müraciət etdiyi mövzu, nəzirə yazdığı dəyərli bədii külliyyata çevrildi. Şərqin bir çox ədiblərinin yazdığı əsərlərdə Nizami Gəncəvi ruhunu duymaq mümkündür. Sədinin “Gülüstan”, “Bustan”, Əssar Təbrizinin “Mehr və Müştəri”, Mahmud Şəbüstərinin “Gülşəni-raz”, Cəlaləddin Ruminin “Məsnəvi”si, Marağalı Əvhədinin “Cami-Cəm”, Məsihinin “Vərqa və Gülşa” əsəri və neçə-neçə əsərlərin məhz Nizami Gəncəvi dühasından bəhrələnərək qələmə alındığını söyləmək mümkündür. XIII əsr hind şairi Əmir Xosrov Dəhləvi Nizami Gəncəvidən bəhrələnərək özünün “Xəmsə”sini yazmış və Nizami Gəncəvini özünün ustadı hesab etmişdir:

Dirilik suyudur Nizami sözü,
Sözdə həyat tapdı Nizami özü

Ölməz "Xəmsə"sini bəzədi zövqü,
Yeddi səyyarəyə nur verdi şövqü [2, s. 226].

Əmir Xosrov Dəhləvi Nizami Gəncəvinin "Xəmsə"sinə cavab olaraq, özünün beş poemasını qələmə almışdır. Bunlar "Mətləul-ənvar", "Şirin və Xosrov", "Məcnun və Leyla", "Ayineyi-İskəndəri", "Həşt behişt" poemalarıdır. Bu beşlik hind ədəbiyyatının dəyərli nümunəsi olmaqla yanaşı, Əmir Xosrov Dəhləvi yaradıcılığının şah əsəridir. Ə.X.Dəhləvi bu "Xəmsə"ni fars dilində yazmış, obrazlarda və hadisələrin süjetində müəyyən dəyişikliklər etmişdir. Bəzi tədqiqatçıların fikrincə, hadisələrin gedişatında və müəllifin yanaşmasında olan sadəlik poemaların ideya yükünü sadələşdirir və müəllifin bu yaratdıqları Nizami Gəncəvinin yaratdıqlarını üstələyə bilməmişdir.

Nizami Gəncəvinin "Xəmsə"sindən bəhrələnərək "Xəmsə" yaradan ədiblərdən biri orta əsrlərin görkəmli ədiblərindən olan Xacu Kirmanidir. Onun beşliyinə daxil olan əsərlər "Humay və Humayun", "Gül və Novruz", "Rövzətül-ənvar", "Kamalnamə", "Gövhərnamə" poemalarıdır. Bu poemalar Nizami Gəncəvinin "Xəmsə"sindəki poemalara nəzirə olaraq yazılmış və mövzunun, süjet xətlərinin, obrazlar aləminin özünəməxsusluğu ilə seçilir. "Humay və Humayun" poeması Humay şahın Çin şahzadəsi Humayun şaha olan məhəbbətindən bəhs edir. "Gül və Novruz" poeması yenə məhəbbət mövzusundadır və Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasına cavab olaraq qələmə alınmışdır. "Rövzətül-ənvar" poeması N.Gəncəvinin "Sirlər xəzinəsi" poeması üslubundadır. "Kamalnamə" poemasında "Yeddi gözəl", "Gövhərnamə" poemasında isə yenə də "Xosrov və Şirin" əsərinin təsirini duymaq mümkündür. Göründüyü kimi, Xacu Kirmani məhəbbət mövzusuna toxunsa da, daha çox "Xosrov və Şirin" poemasından bəhrələnmişdir, "Leyli və Məcnun" poemasının izlərinə isə bilavasitə rast gəlinmir.

Nizami Gəncəvi yaradıcılığında ümumbəşəri ideyalar ön plandadır. Sadə xalq nümayəndələrinin mənafeyini düşünmək, onların mənafeyini müdafiə etmək, zəhmətkeş kütləni dəstəkləmək Nizami Gəncəvi yaradıcılığında rast gəlinən məqamdır. Bu baxımdan onun əsərləri təkcə sahib olduğu xalqın deyil, geniş xalq kütləsinin, uzaq coğrafi mövqelərin insanlarının da dəyər verdiyi bədii külliyyatdır. Doğrudur, Nizami Gəncəvi bir sıra əsərlərini hökmdarlara ithaf etsə də, saraydan uzaq yaşamış, xalqın içində olmuşdur. Nizami Gəncəvinin yaşadığı XII əsrdə Azərbaycan Atabəyləri olan Eldənizlər tərəfindən üsul-idarəsi mövcud idi. Şairin yaşadığı Gəncə şəhəri də ticarət mərkəzlərindən sayılırdı, sənətin və sənətkarlığın, mədəniyyətin, ədəbiyyatın inkişaf etdiyi şəhərlər sırasında idi. Onun əsərlərində toxunduğu mövzular həm dövrün tələblərindən, həm də şairin şəxsi müşahidələrindən irəli gəlirdi.

Nizami Gəncəvinin yaradıcılığında bütün təbəqədən olan insan obrazlarına rast gəlmək mümkündür. Nizami Gəncəvinin istər lirik, istərsə də epik yaradıcılığının mövzusu zəngindir. İctimai motivlər, zülm və haqsızlığa qarşı üsyan, saf eşq, fəlsəfi düşüncələr, ölkənin ədalətlə idarə olunması, humanizm, vətənpərvərlik, mənəvi zənginlik, sadə əmək insanlarının vəsfi və s. məqamlar Nizami Gəncəvi yaradıcılığında rast gəlinən məqamlardır. "Xosrov və Şirin" poemasının "Nəsihət və son söz" hissəsində şair özünə müraciətlə yazır:

Nizami, nə qədər səndə can durur,
Daim aşağı düş, istəyim budur!
Dənizdə bəslənən inciyə bir bax,
Düşdüyüçün çıxar başlara ancaq.
Dən kimi düş yerə, başın ucalsın,
Sünbül kimi olma-yel yerə salsın.
Bədxislət fələklə elə müdara,
Hümmətlə get, ömür azdır aşkara [5, s.470].

Nizami Gəncəvi böyük mütəfəkkir şəxsiyyətdir. Onun əsərləri tərbiyəvi-əhəmiyyətli fikirlərlə zəngin olduğu üçün sərhədləri aşaraq dünya miqyasında tanınmışdır. Şairin ustalığı onda idi ki, sıravi bir şeir, yaxud poema yaratmırdı, öz fikir və düşüncələrini bu əsərlərdə ustalıqla nəzmə çəkirdi. Bu səbəbdən Nizami Gəncəvi bütün dövrlərin şairidir. Təkçə Şərq ədəbiyyatına deyil, eyni zamanda Qərb ədəbiyyatına da təsirsiz ötüşməyən Nizami Gəncəvi yaradıcılığı yeniliklər üzərində qurulmuş bir məxəzdir. Şərq ədəbiyyatında ilk dəfə "Leyli və Məcnun" əfsanəsindən bəhrələnərək "Leyli və Məcnun" poemasını yaradan Nizami Gəncəvi özündən sonra bu mövzuda yazan bir sıra şairlər üçün ilham mənbəyi rolunu oynadı. Bu məşhur ərəb əfsanəsinə İbn Quteybə, Əbülfərəc İsfahani, İbn Sərrac, Məhəmməd ibn Davud Zahiri, İbn Nədim kimi müəlliflərin əsərlərində rast gəlinsə də, yazılı ədəbiyyatda əsər kimi "Leyli və Məcnun" poemasını Nizami Gəncəvi işləmişdir. Sonralar "Leyli və Məcnun" mövzusunda bir-birindən dəyərli çoxsaylı əsərlər qələmə alındı. "Leyli və Məcnun" mövzusunda bir çox şairlər, o cümlədən Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvai, Məktəbi Şirazi, Abdullah Hatifi, Həqiri Təbrizi, Məhəmməd Füzuli, Qul Ətayi, Əndəlib Qaracadaği, Şəkərim Kudayberdiyev, Xurşid, İsa bəy Nəcati və başqaları eyniadlı əsərlər qələmə almışlar.

"Leyli və Məcnun" poeması ilk dəfə Azərbaycan dilində Həqiri Təbrizi tərəfindən yazılmışdır. Əsərin yeganə əlyazma nüsxəsi hal-hazırda İngiltərənin Britaniya muzeyində saxlanılır. Adıçəkilən əlyazmanın fotosurəti AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılır. Həqiri Təbrizi bu əsərin mövzusunu Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasından götürsə də, əsərdə bir sıra fərqlər də nəzərə çarpır. Belə ki, şair poemaya bir sıra əlavələr etmiş, aşiqlərin dilindən mürəbbelər, qəzəllər səsləndirmişdir. Məcnunun dilindən Leyliyə yazılmış qəzəlin birində müəllif yazır:

Gecə-gündüz munisü məhrəm mənəm,
Çeşmi şuxtü qaməti şümşad qıl.
Padişaha! Kamiransan dərcahan,
Zülfdən ehsani-ədlü dad qıl.
Əsdi badi-sübh əz kuyi sənəm,
Ey könül, sən ömrümü bərbad qıl.
Ey Həqiri, ulu bir şirin üçün,
Kuhkən bol, naleyi-fərhad qıl [14].

Həqiri Təbrizi əsərin süjetində və obrazlar aləmində bir sıra dəyişliklər etmiş, yeni epizodlar əlavə etmişdir. Bununla yanaşı, Azərbaycan dilində bu mövzuda yazılmış ilk "Leyli və Məcnun" əsəri Həqiri Təbrizinin qələmə aldığı "Leyli və Məcnun" poeması hesab olunur.

"Leyli və Məcnun" mövzusuna böyük şairimiz Məhəmməd Füzuli də müraciət etmişdir. M.Füzuli "Leyli və Məcnun" poemasının yazılma səbəbi hissəsində Nizami Gəncəvidən bəhrələndiyini vurğulmağı unutmamış, onu ustadı kimi dəyərləndirmişdir:

Olsaydı təvəccöhü münasib,
Tövcihinə çox olurdu rağib.
Olsaydı təsərrüfündə rahət,
Çox kamil ona qılırdı rəğbət.
Billah ki, nə xoş demiş Nizami,
Bu babdə xətm edib kəlami [3, s. 40].

Məhəmməd Füzuli bu əsəri Rum zəriflərinin xahişi ilə qələmə alaraq, Sultan Süleyman Qanuniyə ithaf etmişdir. M.Füzuli əsas süjet xəttini saxlasa da, əsərə bir sıra əlavələr etmişdir. Onun yaratdığı obrazlar Nizaminin obrazlarına nisbətən xaraktercə fərqlidir və əsərdə sufi eşq daha qabarıqdır. Poemada aşiqlərin bir-birinə klassik janrlarda şeirlər yazması, təbiət

təsvirləri, Məcnunun doğularkən ağlaması, Leylinin aciz olması və bəzi əlavə obrazlar əsəri Nizami Gəncəvinin eyniadlı poemasından fərqləndirir.

Nizami Gəncəvinin müəllifi olduğu "Xəmsə" görkəmli özbək ədibi Əlişir Nəvainin yaradıcılığından da təsirsiz ötüşməmişdir. Onun müəllifi olduğu "Xəmsə"də "Fərhad və Şirin", "Leyli və Məcnun" poemaları, Makedoniyalı İskəndərin həyatından bəhs edən "Səddi-İskəndəri", Sasani hökmdarı Bəhram Gurun həyatından bəhs edən "Səbeyi-Səyyar" adlı tarixi əsərlər yer alır. Bu əsərlərə nəzər saldıqda Nizami Gəncəvi üslubunu duymaq mümkündür. "Nəvai bütün poemalarının başlanğıcında əsərə başlamazdan əvvəl Nizaminin "heykəlini ucaldır, onun bədii söz sahəsindəki xidmətini, ustalıq rolunu tərif edir. Poemalarındakı girişlərdə Nizami sənətinin bütün sirlərindən xəbərdar olan bir şairin səmimi düşüncələrini görürük. O, Nizamini "vəhdət göhərin əlinə alan", "üzlət kəmərin belinə bağlayan", "məna hərəmini fəth edən", "söz bikrini zivərə qərq edən" ustad sənətkar adlandırır. Bütün bu obrazlarda dahi Azərbaycan şairinin ədəbi fikrə gətirdiyi həqiqətlər təsdiq olunur" [9, s. 23].

Əlişir Nəvai 1483-1485-ci illər ərzində türkdilli "Xəmsə" yazaraq, Nizami Gəncəviyə olan ehtiramını nümayiş etdirmişdir. Doğrudur, hələ Nəvaidən əvvəl Qütb və Heydər Xorəzmi kimi özbək şairləri Nizami Gəncəviyə nəzirə yazmışdılar. Əlişir Nəvai isə bilavasitə "Xəmsə" ərsəyə gətirmişdir. Onun müəllifi olduğu "Xəmsə"yə daxil olan ilk poema "Heyrətül-əbrar" adlanır. Bu əsər fəlsəfi-didaktik mövzudadır və öz növbəsində Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poeması ilə səsləşir. Müxtəlif didaktik və fəlsəfi fikirlərin yer aldığı "Sirlər xəzinəsi" əsəri, sözsüz ki, öz bədii çəkisi ilə mühüm əhəmiyyət kəsb edir. Məqalət və hekayətlərdə Nizami Gəncəvi onu narahat edən problemləri dilə gətirir, müxtəlif fikirlər fonunda öz düşüncələrini sərgiləyir. "Sirlər xəzinəsi" poemasında əsas məsələlərdən biri şahlara ədalət və insanpərvərlik dərsi vermək, zülm və özbaşınalıq edən hökmdarları tənqid, hətta bəzən ifşa etməkdir. Şair feodal cəmiyyətdə aclığa və yoxsulluğa məhkm edilmiş insanların müdafiəçisi kimi öz şeirlərində ədaləti, doğruluğu və insanpərvərliyi təbliğ edir" [7, s. 26].

Əsərin girişində Ə.Nəvai yenə də Nizami Gəncəvini yad edir, ona olan ehtiramını əks etdirir. Ə.Nəvainin "Fərhad və Şirin" poeması N.Gəncəvinin "Xosrov və Şirin" poemasından ilhamlanaraq qələmə alınmış dəyərli əsərdir. Poemanın girişində ədib yenə də böyük Nizami Gəncəvini yad etməyi unutmur, öz ustadını dəyərli misralarla yad edir. Şair Nizami Gəncəvini xatırlamaqla yanaşı, ondan bəhrələndiyini qeyd edirdi:

Yalnız bu xəznədən almışdır kami,<br>
O Gəncədə yatan böyük Nizami<br>
Gəncədə olsa da armı onun,<br>
Xəznələr üstədir aramı onun.<br>
Ağız qapıları səs eyləmədən<br>
Könül xəznəsini eylədi mədən [10, s.15].

Əsər öz süjet xəttini N.Gəncəvinin əsərindən götürsə də, Əlişir Nəvai burada bəzi məqamlarla dəyişikliklər etmiş, ən başlıcası, Fərhadı baş qəhrəman kimi təqdim etmişdir. Eyni zamanda burada Xosrov amansız bir İran şahı kimi oxuculara təqdim olunur. "Maraqlıdır ki, Ə.Nəvai Nizamidən fərqli olaraq, Xosrovu daha çox mənfi planda təqdim etmişdir. Xosrov ən adi insani dəyərlərdən uzaqdır. Hiylə və zor hər şeyi həll etmək üçün onun əlində yeganə vasitədir. Oxucu Xosrovun Məhinbanu, Şirin və Fərhadla qarşılaşdığı səhnələrdə onun bütün qəddarlıq və amansızlığını müşahidə edə bilir" [8, s. 263]. Bundan başqa Nizami Gəncəvinin əsərindən fərqli olaraq, Əlişir Nəvainin poemasında Şirin Fərhada

olan sadiqliyi ilə diqqət çəkir. N.Gəncəvinin poemasında Şapur Xosrovun dostu kimi təqdim olunsa da, Ə.Nəvainin poemasında Xosrovun düşməni kimi göstərilir.

Əlişi Nəvainin Nizami Gəncəvi yaradıcılığından bəhrələndiyi digər poeması "Leyli və Məcnun" poemasıdır. Poema öz mənbəyini məşhur şərq əfsanəsi "Leyli və Məcnun"dan götürsə də, əsərdə Nizami Gəncəvi dəst-xətti, ruhu, üslubu duyulmaqdadır. Məlumdur ki, "Leyli və Məcnun" ərəb dastan-rəvayətidir və bu rəvayət şərq xalqlarının ədəbiyyatına təsirsiz ötüşməmişdir. Bu mövzuda bir çox ədiblər dəyərli əsərlər yazsalar da, rəvayəti ilk dəfə poema şəklində qələmə alan Nizami Gəncəvidir. Nizami Gəncəvi bu poemanı qələmə almaqla özündən sonra gələn ədiblər üçün "ilham mənbəyi" rolunu oynadı. Nizami Gəncəvi bu əsəri 1188-ci ildə Şirvanşah hökmdarı I Axsitanın sifarişi ilə yazmışdır. 1298-ci ildə Əmir Xosrov Dəhləvi Nizami Gəncəvidən təsirlənərək "Leyli və Məcnun" poemasını yazdı. Əlişir Nəvai isə təxminən üç əsr sonra, 1484-cü ildə eyniadlı poemanı qələmə aldı. Poemanın əvvəlində Nizami Gəncəvi əsəri qələmə almaq səbəbi barədə yazır:

Bu dastanda nə bağ, nə ucalıq var,
Nə çalğı, nə şərab, nə xoşbaxtlıq var.
Qumsala, daşlığa ilham gedərmi?
Getsə də torpağa təsir edərmi?
Hər şeir şadlıqla gəlsə nəfəsə,
Beyti hadisəylə başlayar rəqsə.
Odur ki, dünyada əzəl zamandan,
Kədərdən, qüssədən qaçmışdır insan.
Dərd yazan şairlər qanad salmışdır,
"Leyli və Məcnun"sa sözsüz qalmışdır [4, s. 163].

N.Gəncəvinin "Leyli və Məcnun" poeması mövzu və ideyasına görə şairin digər poemalarından fərqlənir. Əsərdə orta əsrlərin dövrünün ictimai-fikri, dini-fəlsəfi cərəyanının işartılarını görmək mümkündür. Poema gözəl təbiət təsvirləri, maraqlı hekayələrlə, epizodik səhnələrlə zəngindir və bu da qəhrəmanların daxili dünyasının oxucuya daha aydın olmasına xidmət edir. Nizami Gəncəvinin "Leyli və Məcnun" poeması ilə Əlişir Nəvainin "Leyli və Məcnun" poeması mövzu və ideya baxımından səsləşsə də, əsərdə bir sıra fərqlər qabarıq şəkildə nəzərə çarpır. Əlişir Nəvainin qələmə aldığı "Leyli Məcnun" poemasında cığatay məişət tərzi qabarıq şəkildə nəzərə çarpır. Əsər ümumilikdə milli kimliyə daha yaxın üslubdadır və Nizami Gəncəvi tərzindən seçilir.

Əlişir Nəvai "Xəmsə"sinin sonunda bir məclis təsvir edir və bu məclisdə mərkəzdə Nizami Gəncəvi dayanmış, Əbdürrəhman Cami, Əmir Xosrov Dəhləvi, Əbülqasım Firdovsi, Ənvəri, Xaqani Şirvani, Həsən Dəhləvi və digər şərq şairləri onun yanında dayanmışdır. Bu məqam Nizami Gəncəvi poeziyasının Şərq ədəbiyyatındakı mövqeyini və təsirini isbatlayır.

Nizami Gəncəvi irsindən bəhrələnən digər bir görkəmli ədib XV əsrin mütəfəkkirlərindən olan, Ə.Nəvainin müasiri Əbdürrəhman Camidir. Ə.Cami bir sıra fəlsəfi-poetik məzmunlu əsərlər qələmə alsa da, "Həft övrəng" kimi klassik yeddilik toplusu onun ən dəyərli əsərləri sırasındadır. "Həft övrəng" tərcümədə "yeddi taxt" mənasını ifadə edir və Nizami Gəncəvi "Xəmsə"sindən fərqli olaraq burada yeddi poema yer alır. "Əbdürrəhman Cami öz "Həft övrəng"ini Nizami "Xəmsə"si ilə müqayisə edərək, Nizami əsərlərinə böyük üstünlük verir. "Xirədnameyi-İskəndəri" poemasının sonunda isə yazır: "Bu dünya "beş xəzinə" ilə doludur. O "beş"lərə sənin "beş"in necə bərabər ola bilər? Onların xəzinəsi sənin yüz xəzinəndən yaxşıdır" [9, s. 15].

"Həft övrəng" yeddiliyinə daxil olan "Sələsəlat əz-zəhəb", "Sələman və Əbsal", "Töhfətül-əhrar", "Sübhətül-əbrar", "Yusif və Züleyxa", "Leyli və Məcnun", "Xirədnameyi

İskəndəri” məsnəviləri fəlsəfi, dini, didaktik, sufi məzmunda yazılmışdır. Ə.Cami bu əsərlərdən “Töhfətül-əhrar” və “Sübhətül-əbrar” məsnəviləri N.Gəncəvinin “Sirlər xəzinəsi” əsərinin, “Leyli və Məcnun” məsnəvisini eyniadlı poemasının, “Xirədnameyi İskəndəri” poemasını isə “İskəndərnamə” əsərinin təsiri ilə qələmə almışdır.

Nizami Gəncəvi yaradıcılığından bəhrələnən və onun “Xəmsə”sinə cavab yazan ədiblərdən biri XVI əsr Səfəvi tarixçisi Əbdi bəy Şirazidir. Əsl adı Xacə Zeynalabidin Nəvidi olan şairin külliyyatı təxminən 55 min beyt civarındadır. N.Gəncəvinin “Xəmsə”sinə cavab yazan “Xəmsə” yaradan digər ədiblərdən fərqli olaraq, Əbdi bəy Şirazi üç müxtəlif “Xəmsə” yaratmışdır. Birinci “Xəmsə”yə daxil olan poemalar “Məzhər ül-əsrar”, “Cami-Cəmşidi”, “Məcnun və Leyli”, “Həft əxtər”, “Ayini İskəndəri” poemalarıdır. İkinci “Xəmsə”yə daxil olan əsərlər “Cövhər-i fərd”, “Dəftəri-dərd”, “Firdövs ül-arifin”, “Ənvari-təcəlla”, “Xəzain ül-muluk” məsnəviləridir. Üçüncü “Xəmsə”yə daxil olan əsərlər isə “Rövzət üs-sifat”, “Dövhət ül-əzhar”, “Cənnət ül-əsmar”, “Ziynət ül-övraq”, “Səhifət ül-ixlas” poemalarıdır.

Əbdi bəy Şirazinin “Məxzən ül-əsrar” əsəri Nizami Gəncəvinin “Sirlər xəzinəsi” poeması ilə səsləşir. Bu əsər Ə.Şirazinin həcmcə ən böyük məsnəvisi hesab edilir. İkinci “Xəmsə”yə daxil olan “Xəzain ül-muluk” məsnəvisi həm də “Xəzain ül-mələkut” adı ilə tanınmaqdadır. Bu məsnəvinin beş əlyazması mövcuddur. Əsərin iki nüsxəsi Tehran Universitetinin kitabxanasında, London muzeyində, Sankt-Peterburq Universitetinin Şərqşünaslıq fakültəsində və Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılır. Poema 1561-ci ildə yazılmış, 7700 beytdən və 7 xəzanədən ibarətdir. Bu xəzanələrdə “Əfifənin hekayəti”, “Zərarə və Səlma” dastanı, “VII Muradın gürcü cariyə ilə hekayəsi” və s. hekayələr yer alır. Əbdi bəy Şirazinin hər üç “Xəmsə”sinə daxil olan poemalarda Nizami Gəncəvi üslubunu, dəst-xəttini, mövzu və ideyalarını görmək mümkündür.

XIII əsrdən başlayaraq, bir çox şairlər “Xəmsə” yaratmasalar da, Nizami Gəncəvi yaradıcılığından bəhrələnmişlər. Mahmud Şəbüstəri “Gülşən-raz”, Marağalı Əvhədi “Cami-Cəm”, Arif Ərdəbili “Fərhadnamə”, Əssar Təbrizi “Mehr və Müştəri”, Məktəbi Şirazi “Leyli və Məcnun”, Abdullah Hatifi “Həft mənzər”, Katibi Turşizi “Bəhram və Güləndam” kimi poemalar qələmə alarkən Nizami Gəncəvi dühasından ilhamlanmış və öz ideyalarını da əlavə etməklə maraqlı əsərlər ərsəyə gətirmişlər. Bu proses sonrakı dövrlərdə də davam etmiş, Nizami Gəncəvinin poemalarının təsir gücü uzun müddət özünü qoruyub saxlaya bilmişdir.

Yaradıcılığı ilə yeni ənənələr yaradan, özünə qədərki ədiblərin yaradıcılığında bir o qədər də rast gəlinməyən mövzuları qabartmaq Nizami Gəncəvi yaradıcılığının möhtəşəmliyindən xəbər verir. Nizami Gəncəvi həm də epik ədəbiyyatın ən böyük romantik şairi, bütün dövrlərin klassiki sayılır. Görkəmli şair Səməd Vurğunun Nizami Gəncəviyə həsr etdiyi “Nizami” şeirində şairə olan ehtiramı bildirir:

Ölməz bu gözəl aləmə idrakla gələnlər
Məna evinin sirrini vicdanla bilənlər,
Sənsən ədəbiyyət dediyim sevgili dildar,
Daşlarda, çiçəklərdə, ürəklərdə adın var.
Aydanmı, Günəşdənmi yarandın, de, nədən sən?
Xalqın gözü də, qəlbi də, vicdanı da sənsən [13, s. 27].

Səməd Vurğun eyni zamanda Nizami Gəncəvinin “Xosrov və Şirin” poemasından ilhamlanaraq 1941-ci ildə “Fərhad və Şirin” dramını qələmə almışdır. Səməd Vurğunun bu dramı qələmə almasının səbəblərindən biri Nizami Gəncəviyə olan ehtiramı, eyni zamanda şairin 800 illik yubileyi ərəfəsində öz töhfəsini bəxş etmək istəyi idi. Dram əsəri eyni süjet

xəttinə əsaslansa da, Səməd Vurğun əsərdə bir sıra dəyişikliklər etmişdir. Əsərdə Azər baba Fərhadın atası kimi təqdim olunur, hansı ki, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında yoxdur. Eləcə də, dram əsərində Şirin poemada olduğu kimi Məhinbanunun qardaşı qızı deyil, öz qızı kimi oxuculara təqdim olunur.

***Nəticə***

Nizami Gəncəvi yaradıcılığı humanizm və demokratik ideyalar ilə seçilən poeziyadır. İstər lirik, istər epik yaradıcılığında Nizami Gəncəvi özünəqədərki müəlliflərin müraciət etmədiyi yeni mövzular, ideyalar, obrazlar yaratmışdır. Onun yaradıcılığı türk və şərq dünyası üçün intibah sayılır. Özündən sonrakı ədiblər üçün yeni ənənə yaradan, ədəbi məktəbin əsasını qoyan, yeni istiqamət və cərəyan formalaşdıran dahi Nizami Gəncəvi yaradıcılığı bu gün də öz dəyərini qoruyub saxlamaqdadır.

ƏDƏBİYYAT

1. Arzumanlı V. Nizami Gəncəvinin dünya şöhrəti. Bakı: Qartal, 1997
2. Dəhləvi Ə.X. Şirin və Xosrov. Bakı: Arvasiya Press, 2006
3. Füzuli M. Əsərləri. 6 cilddə, 2-ci cild. Bakı: Şərq-Qərb, 2005
4. Gəncəvi N. Poemaları. Bakı: Maarif, 2002
5. Gəncəvi N. "Xosrov və Şirin". Bakı: Lider nəşriyyatı, 2004
6. Kərimli T. Nizami və tarix. Bakı: Elm, 2002
7. Quluzadə M. Nizami Gəncəvi. Bakı: 1953
8. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Conatant Empary, 2011
9. Nağıyeva C. Azərbaycanda Nəvai. Bakı: "Tural-Ə" NPM, 2001
10. Nəvai Ə. Seçilmiş əsərləri. Bakı: Öndər, 2004
11. Rzasoy S. Nizami poeziyası: Mif-tarix konteksti. Bakı: Ağrıdağ, 2003
12. Səfərli Ə. Yusifli X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982
13. Vurğun S. Seçilmiş əsərləri. 5 cilddə, 2-ci cild. Bakı: Şərq-Qərb, 2005
14. https://az.wikipedia.org/wiki/Leyli_v%C9%99_M%C9%99cnun_(H%C9%99qiri)

***Лейла КЕРИМОВА***
***Доктор философских наук***

## ЛИТЕРАТУРНАЯ ШКОЛА НИЗАМИ ГЯНДЖАВИ И ТРАДИЦИЯ «ХАМСЕ» В ВОСТОЧНОЙ ЛИТЕРАТУРЕ
### *РЕЗЮМЕ*

*Ключевые слова:* Низами Гянджеви, поэма, Хамсе, Восток, литературная школа

Низами Гянджави — выдающаяся литературная фигура, занимающая уникальное место в мировой литературе. Известный не только как великий поэт своего времени, но и всех времен, Низами Гянджави обладает ценным литературным наследием. Его творчество является ценным источником для мировой литературы, и не случайно его литературный корпус оказал влияние на творчество многих писателей мира.

Творчество Низами Гянджави не ограничивается новыми героями и темами. Одним из важнейших вкладов поэта в литературу является создание всемирно известной «Хамсе», которая сыграла важную роль как источник и ориентир для этой великолепной пятерки ближневосточных и средневосточных писателей и привела к созданию поэтом литературной школы. Таким образом, поэмы «Сокровищница тайн», «Хосров и Ширин», «Лейли и Маджнун», «Семь красавиц», «Искандаранаме» стали

темой для многих поэтов мира и вошли в ценный литературный корпус его творчества. Дух Низами Гянджави ощущается в произведениях многих писателей Востока. Можно сказать, что «Гюлустан» и «Бустан» Сади, «Мехр и Муштери» Ассара Табризи, «Гульшани-раз» Махмуда Шабустари, «Маснави» Джалаладдина Руми, «Джами-Джам» Марагали Авхеди, «Варга и Гульша» Масихи и многие другие произведения были написаны под влиянием гения Низами Гянджави. Точно так же такие писатели, как Мухаммад Физули, Алишер Навои, Амир Хосров Дехлеви, Абди бек Ширази, Ариф Ардабили, Ашраф Марагайи, воспользовались наследием Низами Гянджеви и написали стихи на ту же тему.

***Leyla KARIMOVA***
***Doctor of philosophy in philology***

## NIZAMI GANJAVI LITERARY SCHOOL AND THE "KHAMSA" TRADITION IN EASTERN LITERATURE

### *SUMMARY*

*Keywords:* Nizami Ganjavi, poem, Khamsa, East, literary school

Nizami Ganjavi is a huge literary figure with a unique position in world literature. Known not only as a great poet of his time, but also of all times, Nizami Ganjavi has a valuable literary heritage. Nizami Ganjavi's work is a valuable source for world literature, and it is no coincidence that his literary corpus has influenced the work of a number of world writers.

Nizami Ganjavi's creative work does not end with new heroes and new themes. One of the poet's most important contributions to literature is the creation of the world-famous "Khamsa", which played a valuable role as a source and beacon for this magnificent five-piece of Near and Middle Eastern writers, and led to the poet's creation of a literary school. Thus, the poems "The Treasury of Secrets", "Khosrov and Shirin", "Leyli and Majnun", "The Seven Beauties", "Isgandarname" became a topic addressed by many world poets, and became a valuable literary corpus written by him. It is possible to feel the spirit of Nizami Ganjavi in the works written by many writers of the East. It is possible to say that Sadi's "Gulustan", "Bustan", Assar Tabrizi's "Mehr ve Mushtari", Mahmud Shabustari's "Gulshani-raz", Jalaluddin Rumi's "Masnavi", Maraghali Avhedi's "Jami-Jam", Masihi's "Varga ve Gulsha" and many other works were written by benefiting from the genius of Nizami Ganjavi. Likewise, writers such as Muhammad Fuzuli, Alisher Navoi, Amir Khosrov Dehlavi, Abdi Bey Shirazi, Arif Ardabili, Ashraf Maraghayi benefited from the heritage of Nizami Ganjavi and wrote poems on the same subject.

***Daxil oldu: 10.04.2026-cı il***